# QİYAMƏTƏ
# ÜÇ DƏQİQƏ
# QALMIŞ

# QİYAMƏTƏ ÜÇ DƏQİQƏ QALMIŞ ÜÇÜN TƏRİFLƏR

FTB xəfiyyəsi olmuş və Büroda ən yaradıcı və çalışqan əks-kəşfiyyat zabitlərindən birinə çevrilmiş müəllifin bu kitabı ABŞ ordusunun xəyanətkarı Rod Ramsini izləməyə həsr olunub. O, bir çox qaranlıq əməlləri ilə yanaşı, Qərbi Avropanın müdafiə planlarını da Sovet İttifaqına və Varşava müqaviləsinə ötürməyə kömək etmişdi. *"Qiyamətə üç dəqiqə qalmış"* parlaq şəkildə nəql edilmiş möhtəşəm bir casusluq əhvalatıdır – casusluğun gizli tarixini bilmək istəyən hər kəs üçün mütləq oxunmalı bir əsərdir.

*– Devid Meycor,*
*Əks-Kəşfiyyat Mərkəzinin qurucusu, təqaüddə olan FTB xüsusi xəfiyyəsi və Milli Təhlükəsizlik Şurasının Kəşfiyyat və Əks-Kəşfiyyat Proqramlarının keçmiş direktoru*

Bu əsər həm maraqlı, həm də təsirlidir. Casuslara, kəşfiyyat metodlarına, Sovetlərə, Soyuq müharibə dövrü Avropasına, nüvə müharibəsi planlarına, FTB agentlərinin gündəlik fəaliyyətinə, yüksək səviyyəli casusluq işlərinə və ya sadəcə yalanı müəyyənləşdirmə üsullarına maraq göstərən hər kəs üçün *"Qiyamətə üç dəqiqə qalmış"* oxunması zəruri olan bir kitabdır.

*– Nils Conson-Şelton,*
*"New York Times"ın ən çox satılan "Mələklər yoxdur" kitabının həmmüəllifi*

Bu əsər həm həyəcan doğurur, həm də vahimə yaradır. Keçmiş FTB xəfiyyəsi Co Navarro burada ABŞ tarixindəki ən böyük və ən məkrli casusluq sirlərindən birini üzə çıxar-

masının və ifşa etməsinin hekayəsini nəql edir. Burada təsvir olunan kəşfiyyat ustalığı oxucuya Con Le Karrenin romanını xatırladır, lakin təəccüblüsü odur ki, bütün bunlar gerçəkdir!

*– Robert K.Vittman,*
*FTB-nin Yaradıcı Cinayətlər Qrupunun banisi və*
*“New York Times”ın ən çox satılan*
*“Qiymətsiz” və “Şeytanın gündəliyi”*
*kitablarının müəllifi*

*“Qiyamətə üç dəqiqə qalmış”* sizi əks-kəşfiyyatın çətin və bulanıq dünyasına aparır – burada qaydalar çox vaxt belədir: düşməninizlə dost olun, dostlarınıza yalan danışın və öz qərargahınızın sizə arxadan vurmayacağına əmin olmaq üçün daha diqqətli olun. Gözəgörünməz, vətəndaşlarımızı qorumaq üçün daim təhlükə qarşısında duran insanların ödədiyi qiymət nadir hallarda aşkara çıxır; eyni zamanda, ölkəmizin hər an nə qədər böyük bir təhlükə ilə üz-üzə olduğunu da anlamaq çətindir. Co Navarronun bu kitabı oxuculara vahiməli hisslər yaşadacaq, diqqəti üzləşdiyimiz təhlükələrə yönəldəcək və daim hər şeyi riskə atanların məhrumiyyətlərinin ağırlığını qəlblərinə hiss etdirəcək.

*– Qlen L.Karl,*
*keçmiş MKİ zabiti və “Müstəntiq” kitabının müəllifi*

Burada sirr, intriqa, yüksək dramatizm və yumor var. Lakin ən təsirli olan, müəllif və super qəhrəman FTB xəfiyyəsi Co Navarro ilə Ramsinin çox maraqlı zəka mübarizəsidir. Oxucu hər sözün, hər hərəkətin ardınca gedir və daha çoxunu

istəyir. Bu kitab oxucunu həyəcan içində saxlayan nadir əsərlərdəndir. Mütləq oxunmalı bir kitabdır.

*– Sandra Qrimes,*
*keçmiş MKİ əməliyyatçısı və "Xəyanət çevrəsi" kitabının həmmüəllifi*

Bu əsər qeyri-müəyyənliyi ustalıqla təqdim edir və ən məşhur detektiv və triller romanlarının müəllifləri ilə rəqabət apara bilər… Bu araşdırmaların necə həyata keçirildiyini öyrənmək istəyən hər kəs bu kitabı mütləq oxumalıdır. Üstəlik, ölkəmizin tarixində təhlükə ilə dolu bir dönəmdə asayişimizi qoruyan Co Navarronun olması hər birimiz üçün böyük xoşbəxtlikdir.

*– Qeri Noesner,*
*FTB-nin Böhran Danışıqları Bölməsinin rəhbəri və "Vaxt qazanmaq: FTB-nin danışıqlar üzrə xəfiyyəsi kimi həyatım" kitabının müəllifi*

Bu əsər bir FTB xəfiyyəsinin Soyuq müharibə casusunu ələ keçirmək uğrunda apardığı mübarizəyə dair maraqlı, səhnəarxası bir baxış təqdim edir. Sonsuz çətinliklər və xaosa baxmayaraq, Navarro heç vaxt təslim olmadı. Ölkəmizin xeyri üçün oxucu olaraq siz də ümid edəcəksiniz ki, çətin şəraitdə vəzifəsini yerinə yetirməyə çalışan daha çox Co Navarro var.

*– Fred Barton,*
*"Stratfor" şirkətinin vitse-prezidenti, keçmiş Diplomatik Təhlükəsizlik Xidmətinin xüsusi xəfiyyəsi və "Nyu York Times"ın ən çox satılan "Atəş altında", "Kölgə" və "Kölgələrin ardınca" kitablarının müəllifi*

Bu müasir dövrün ən qeyri-adi casusluq əhvalatlarından biridir. Navarronun birinci şəxsin gözü ilə danışılan təsirli əhvalatı oxucunu mütaliə boyu həyəcanda saxlayır.

*– Brayan Latel,*
*"Fideldən sonra" və "Kastronun sirləri"*
*kitablarının müəllifi*

Co Navarro

# QİYAMƏTƏ ÜÇ DƏQİQƏ QALMIŞ

BİR XƏFİYYƏ, BİR XƏYANƏTKAR VƏ ABŞ TARİXİNDƏKİ ƏN BÖYÜK CASUSLUĞUN İFŞASI

Tərcüməçi:
Şəhriyar Babayev

QANUN NƏŞRİYYATI

Joe Navarro

# THREE MINUTES TO DOOMSDAY

AN AGENT, A TRAITOR, AND
THE WORST ESPIONAGE BREACH
IN US HISTORY

Soyuq müharibənin son günləri.

1988-ci ildə FTB-nin ən gənc xəfiyyəsi Co Navarro xüsusi təyinatlı və əks-kəşfiyyat tapşırıqları arasında qalmışdı. Lakin onun əsas istedadı bədən dilini oxumaq bacarığı idi. O, dindirdiyi şəxslərin fikirlərini oxumaq üçün fövqəltəbii qabiliyyətə malik idi.

Adi bir tapşırıq zamanı o, şübhəli şəxsi – keçmiş amerikalı əsgər Rod Ramsini dindirərkən, Almaniyada casusluqda şübhəli bilinən başqa bir əsgər haqqında sual verildikdə onun əlinin əsdiyini gördü. Bu, FTB-nin istintaqa başlaması üçün kifayət idi.

Bunun ardınca tayı-bərabəri olmayan əqli mübarizə başladı. Bir tərəfdə şübhəlini ürkütməmək üçün açıq danışa bilməyən FTB xəfiyyəsi, digər tərəfdə isə onu təqib edəni yanlış istiqamətə yönəltməkdən zövq alan xain. Navarronun işini çətinləşdirən digər bir məqam da o idi ki, Ramsi təkcə fotoyaddaşa deyil, həm də ən yüksək İQ səviyyəsinə malik ikinci şəxs idi və özünün əqli qabiliyyətlərinə uyğun olmayan insanların arasında darıxmağa başlayırdı. Bu səbəbdən Navarro ünsiyyəti itirməmək üçün öz davranışını 20 addım irəli düşünməli olurdu.

Nüvə silahlanması ilə bağlı məxfi planların açıqlanmasının Birləşmiş Ştatların tam məhvinə səbəb ola biləcəyi barədə heyrət doğuran casus əhvalatı.

**Joe Navarro** **THREE MINUTES TO DOOMSDAY**
**Co Navarro** **QİYAMƏTƏ ÜÇ DƏQİQƏ QALMIŞ**

Janr: kriminologiya, psixologiya, beynəlxalq münasibətlər
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 520

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Şəhriyar Babayev |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-608-18-2

© Qanun Nəşriyyatı, 2026
Copyright © 2017 by Joe Navarro

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.